**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi**
**Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsi**

# İctimai şuranın iclasının Protokolu

**28 sentyabr 2018-ci il № 01** **Bakı şəhəri**

**Sədr:** **İslam Orucov**
**Katib:** **Roman Məmmədov**

**İştirak etdilər:** Baş İdarənin rəisi – Telman Mehdiyev, Baş İdarənin rəis müavinləri İslam Orucov, Alquluyev Rauf, Səbziyev Suleyman, Leysanov Azər, Gömrük əməliyyatları İdarəsinin rəisi Rəfail Niftəliyev, İdarənin rəis müavinləri Hüseynov Seyhun, Hüseynov Ruslan, Gömrük prosedurları və ödənişləri şöbəsinin rəisi Nağıyev Elman, Tranzit şöbəsinin rəisi Babayev Ceyhun, Skanlaşdırma və texniki nəzarət vasitələrinin tətbiqi şöbəsinin rəisi Məmmədov Namiq, Gömrük postlarının işinin təşkili şöbəsinin rəisi Seyidsultanli Mirəbülfəz, Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinə gömrük rəsmiləşdirilməsi ilə bağlı müraciət edən biznes subyektlərinin nümayəndələri.

**Gündəlikdə duran məsələlər:**

1. Məmur-sahibkar münasibətlərində tərəflərin hüquqlarının qorunması barədə.

**Eşidildi:**

Telman Mehdiyev: Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş davamlı iqtisadi inkişaf proqramı bu gün də ölkə prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Cənab prezident sahibkrlığın inkişafını Azərbaycan üçün prioritet məsələlərdən hesab edir və qeyri-neft sektorunun inkişafına xüsusi önəm verir. Təsadüfi deyil ki, bu istiqamətdə davamlı olaraq konkret addımlar atılır. 2015-ci ildən sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması və hazırda bu müddətin 2021-ci ilədək artırılması buna bariz nümunədir.

Gömrük orqanlarının fəaliyyəti qanunun aliliyi, insan hüquq və azadlıqlarının qorunması, şəxslərin qanun qarşısında hüquq bərabərliyi, aşkarlıq, peşəkarlıq, xidmətdə nizam-intizam prinsiplərinə əsaslanır. İdxal-ixrac əməliyyatları zamanı şəffaflığın təmin olunması, bu istiqamətdə xarici iqtisadi fəaliyyət iştirakçıları ilə əməkdaşlığn qurulnması, təbliğat və maarifləndirmə işlərinə xüsusi önəm verilməsi Dövlət Gömrük Komitəsi tərəfindən gömrük əməkdaşları qarşısında qoyulan əsas tələblərdir.

Gömrük orqanlarında biznes subyektlərinin işinin asanlaşdırılması üçün layihələr həyata keçirilir. Hər bir iş adamı Dövlət Gömrük Komitəsinin Rəsmi internet saytı vasitəsilə birbaşa Komitə sədrinə, həmçinin apelyasiya şurasına müraciət ünvanlaya bilər. Bundan əlavə gömrük sahəsində elektron hökümət portalı üzərindən 14 gömrük xidməti həyata keçirilir. Hər bir sahibkar istənilən yerdən malı bəyan edə, həmçinin vergi və rüsumları elektron formada ödəyə bilər. Vaxt itkisinin qarşısını almaq məqsədilə gömrük sərhədindən keçəcəyi barədə əvvəlcədən müvafiq gömrük orqanlarını məlumatlandırmaq mümkündür.

Artıq iki ilə yaxındır ki, gömrük rəsmiləsdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi və məmur-sahibkar münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilməsi, o cümlədən risk qiymətləndirilməsinin nəticələri əsasında, avtomatlaşdırılmış elektron informasiya sisteminin imkanlarından istifadə etməklə, yarana biləcək təhlükənin səviyyəsinin əvvəlcədən müəyyən edilməsi, gömrük nəzarətinin formalarının idxal-ixrac prosedurları üzrə tətbiqinin daha da optimallaşdırılması məqsədilə sərhəd buraxılış məntəqələrində müxtəlif: yaşıl, mavi, sarı və qırmızı dəhliz buraxılış sistemləri tətbiq olunur.

İctimai şuranın əvvəlki iclaslarından sonra gömrük rəsmiləşdirilməsinin operativliyini təmin etmək və bu sahədə vaxt itkisini minimuma endirmək məqsədi ilə Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsi tərəfindən Dövlət Gömrük Komitəsinə müəyyən təkliflər verilmişdir. Beləki, qanunvericiliyin tələblərinə əməl edən biznes subyektlərinə aid malların gömrük sərhəddindən yaşıl dəhliz buraxılış sistemi vasitəsilə keçməsi üçün Dövlət Gömrük Komitəsinin müvafiq əmrilə bir neçə hüquqi və fiziki şəxsə belə icazə verilmişdir: (“Az Texnika” LTD MMC, “Lubristar” MMC, “Lubristar” LLC MMC, “Asfil” MMC, “Grand Motors” MMC, “Azəri M-İ Drilling Fluids” MMC, Kamal Baris oğlu Hüseynov, “Alko” MMC, “Technol”, “Bakı Gəmiqayırma” zavodu, “Elbite” MMC, “El-ve-em” MMC, “Qarant.R+A” MMC, “Reen” MMC, “Rovel Trading” MMC, “Toyota-Bakı” mərkəzi MMC ). Əslində Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinə müraciət edən daha çox müəssisə “yaşıl dəhliz” buraxılış sistemindən istifadə edə bilər. Belə ki, bəzi müəssisələr digər gömrük orqanlarının təklifi ilə bu imkandan yararlanmaqdadırlar.

Bundan əlavə qeyd etmək istəyirəm ki, hazırda sərhəd buraxılış məntəqələrində idxal olunan mallara dair məlumatlarla bağlı texniki səhvlərə yol verilərkən düzəlişin prosedur qaydaları: gömrük orqanına müraciət, düzəliş üçün DGK-nə elektron sifariş, sifarişə baxılması və səhvin aradan qaldırılmasının çox vaxt tələb etməsi və Xarici İqtisadi Fəaliyəət iştirakçılarının narazılığına səbəb olması nəzərə alınmış və bu məsələ müsbət həllini tapmışdır. Dövlət Gömrük Komitəsinin müvafiq sərəncamına əsasən mala dair müvafiq sənədləri təqdim etməklə (elektron gömrük bəyannaməsinə birləşdirməklə) malların bəyan olunması həyata keçiriləcəkdir.

Gömrük orqanlarında daima biznes-gömrük əməkdaşlığına xüsusi diqqət yetirilmişdir. Biznes mühitinin sağlamlaşdırılması məqsədilə müntəzəm olaraq istehlak bazarının monitorinqi aparılır. Sahibkarlar arasında sağlam rəqabəti təmin etmək üçün bəzi iş adamları tərəfindən vergidən yayınma hallarının qarşısının alınması üçün müvafiq tədbirlər görülür və müsbət nəticələr əldə edilir.

Gömrük işi sahəsində şəffaflığın artırılması, xarici iqtisadi fəaliyyətin inkişaf etdirilməsinə yardım göstərilməsi, gömrük tənzimlənməsi və onun həyata keçirilmə

mexanizminin təkmilləşdirilməsi üzrə təkliflərin müzakirəsi, xarici iqtisadi fəaliyyət iştirakçıları və gömrük orqanları arasında yaranan problemlərin aradan qaldırılması, iş adamları və biznes strukturları arasında gömrük işi sahəsində hüquq mədəniyyətinin səviyyəsinin artırılması məqsədilə Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsində fəaliyyət göstərən İctimai Şuranın iclaslarında müxtəlif məsələlər müzakirəyə çıxarılır. Bu görüşlərdə əsas məqsədimiz xarici iqtisadi fəaliyyət iştirakçılarının qarşısına çıxan çətinliklərin aradan qaldırılması, gömrük əməkdaşları ilə sahibkarlar arasında münasibətlərin şəfafflığının təmin edilməsi istiqamətində səylərimizin birləşdirilməsidir.

İctimai şuranın əvvəlki iclaslarında müzakirə olunan məsələlərin müzakirəsinin müsbət nəticələri artıq hiss olunmaqdadır. Son zamanlar bəyannamələrdə düzəlişlərlə bağlı müraciətlərin miqdarında nəzərə çarpacaq azalma müşahidə olunur. Bundan əlavə idxal-ixrac əməliyyatları ilə bağlı təqdim olunmuş müqavilələrin qanunvericiliyə müvafiq tərtib olunması da müsbət nəticələrdən sayıla bilər. Yəqin ki, bu günkü görüşümüzün də qarşılıqlı fəaliyyətimizin səmərəliliyinin və çevikliyinin artırılması istiqamətində nəticələri olacaq.

Bu məqsədlə biz sizdən də təkliflər gözləyirik. Bilmək istərdik ki, gömrük rəsmiləşdirilməsinin hansı mərhələlərində hansı dəyişikliklərin olmasını arzu edərdiniz.

**Çıxış etdilər:**

- Səid Bilalov (Atlaskorp MMC) : Bizim müəssisə yalnız Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsində deyil, digər gömrük orqanlarında da gömrük rəsmiləşdirilməsini həyata keçirir. Lakin yalnız burada bizdən malların sığorta olunması tələb olunur. Eyni səbəbdən Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsində gömrük bəyannaməsinin 30-cu qrafası həmişə doldurulmur və bizdən həmin qrafanın boş saxlanılması tələb olunur. Bir də avtomobil nəqliyyatı ilə daxil olan mallar müvafiq gömrük postuna daxil olmalarına baxmayaraq sənədlərin müəyyən olunmuş müddətlərdə Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinə çatdırılması tələb olunur ki, bu da əlavə çətinliklər yaradır. Məsələn sürücülər bir çox hallarda xarici vətəndaşlar olur və gecə saatlarında Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinin yerini tapmaqda çətinlik çəkirlər və bəzi hallarda tapa bilmirlər ki, bu da onların cərimələnməsinə səbəb olur. Halbuki mallar nəqliyyat vasitəsilə vaxtında müvafiq gömrük postuna daxil olmuşdur.
- Elman Nağıyev: Nəqliyyat vasitələrinin çatmasının təsdiqlənməsi barədə biz Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsi olaraq Dövlət Gömrük Komitəsinə müraciət etmişik və ümidvarıq ki, bu texniki məsələ tezliklə aradan qaldırılacaqdır.Məlumat üçün qeyd edim ki, Dövlət Gömrük Komitəsinin Sədri tərəfindən 17 sentyabr tarixli 100/143 nömrəli Sərəncam ilə təsdiq olunmuş "Gömrük bəyannamələrinin doldurulması" haqqında metodiki vəsait mövcuddur. Bu metodikaya əsasən yalnız mallar müvəqqəti saxlanca verilən zaman gömrük bəyannaməsinin 30-cu qrafası (malların yerləşdiyi yer) doldurulur.
- Rəfail Niftəliyev: Gömrük rəsmiləşdirilməsi zamanı hər bir iş adamına malların sığorta olunması imkanı barədə məlumat verilir.Malların sığortalanması XİF iştirakçıları üçün məcburi deyildir. Belə fakt olubsa, kim tərəfindən yol verilməsi deyilməlidir.

- Bağırlı Orxan (Avto Motors): Bizim gömrük rəsmiləşdirilməsi ilə bağlı problemimiz yoxdur. Lakin bizim müəssisi mobil yağlarının gətirilməsi üzrə rəsmi distribüter olmağına baxmayaraq – yəni biz malı bir başa zavoddan ən aşağı qiymətlə alırıq – bazarda bu malı bizdən də aşağı qiymətə təklif edənlər tapılır. Bu o deməkdir ki, kimlərsə malın dəyərini aşağı göstərməklə gömrük vergi və rüsumlarından yayınır. İstərdik ki, belə halların qarşısı alınsın.

- Telman Mehdiyev: Biz bu məsələ ilə bağlı müvafiq tədbirlər həyata keçiririk. Təəssüf ki, hələ də bəzi iş adamları bu yolla gömrük ödənişlərindən yayınmağa çalışır və qeyri sağlam rəqabət yaradırlar. Biz əlimizdə olan bütün imkanlardan istifadə edirik ki, belə halların qarşısını alaq.

- Hüseynov Ruslan: Bu işdə iş adamları da bizə kömək edə bilərlər. Əgər Sizdə hər hansı bir müəssisənin gömrük sənədlərinin saxtalaşdırması barədə faktınız varsa yazılı surətdə bizə və ya Dövlət Gömrük Komitəsinə müraciət edə bilərsiniz. Gömrük orqanları belə müraciətlərin araşdırılmasında, təsdiqini tapdığı halda qanunvericiliyə müvafiq bütün tədbirlərin görülməsində maraqlıdır.

- Sadiq Əsgərov (Alco MMC): Sumqayıt Sənaye Parkında müxtəlif sürtgü yağlarının istehsalı nəzərdə tutulur. Bununla bağlı daxildə emal gömrük prosedurunda daxil olan bəzi malların gömrük rəsmiləşdirilməsində çətinliklər yaranmışdır. Bunların aradan qaldırılması üçün Sizin köməyinizə ehtiyacımız var.

- Telman Mehdiyev: Hər hansı bir idxal-ixrac əməliyyatlarını həyata keçirməyi planlaşdırdığınız halda mövcud qanunvericiliyin tələblərini öyrənmək və qarşıya çıxan suallarla bağlı əvvəlcədən gömrük orqanlarına müraciət etmək lazımdır. Belə olduqda qeyd etdiyiniz çətinliklər vaxtında aradan qaldırılar və qanunvericiliklə bağlı tələblər əvvəlcədən Sizə izah olunardı.Mal və nəqliyyat artıq Azərbaycanın gömrük ərazisinə daxil olduqdan sonra gömrük orqanlarına müraciət etdiyiniz üçün belə hallar yaranır.

- Elman Yusifov (Azinterval MMC): Burada qeyd edildiyi kimi sahibkarların işləməsi üçün şərait yaratmaq üçün addımlar atılır. Lakin sahibkarların üstündə yenə də böyük yük var. Məndən əvvəl qeyd edildiyi kimi sığorta olunma, GPS qıfıllar üçün ödəniş, Terminallarda avtomaşınların dayanması üçün ödənişlər və s. Bəzi ödənişlər zamanı heç qəbz də verilmir ki, onu xərclərimizə əlavə edək. Bundan əlavə nəyə görə əlavə dəyər vergisi idxal zamanı ödənməlidir. Mal satıldıqdan sonra ödəniş aparılsa sahibkarların işi xeyli asanlaşar və mal dövriyyəsi də artar. Onsuz da ƏDV əvəzləşdirilir. Bunun əvvəlcədən ödənilməsinə nə ehtiyac var? Ümumiyyətlə xarici iqtisadi fəaliyyətin iştirakçılar bütün sahibkarlar kimi dövlət büdcəsinin formalaşdırılmasında böyük rol oynayırlar. Elə qanunvericilik bazası olmalıdır ki, bizim fəaliyyətimizi genişləndirməyə marağımız olsun və daha çox vergi ödəyə bilək.

- Dağbəy Abbasov (Proqres ADF): Deyilənlərlə tam razıyam. Bunlardan əlavə nəyə görə vergidən vergi tutulur. Nəticədə idxal olunan malların qiyməti iki qat artır.

- İslam Orucov : Gömrük vergi və rüsumları, o cümlədən əlavə dəyər vergisinin hesablanması mövcud qanunvericiliyinin tələblərinə uyğun olaraq hesablanır və gömrük xidməti icraedici orqan kimi bu qaydaları dəyişə bilməz. Hər bir sahibkar ayrılıqda və ya birləşərək qrup halında qanunvericilik təşəbbüsü ilə müvafiq dövlət orqanlarına müraciət edə bilər. Qeyd edildiyi kimi malların sığortası könüllü xarakter daşıyır və buna heç kim məcbur edilmir. GPS qıfıllarla bağlı gömrük bəyannaməsində gömrük yığımı nəzərdə tutulmuşdur və Siz bunu xərclərinizdə göstərə bilərsiniz. Avtomobil dayanacaqlarında

sərf etdiyiniz vəsaitlərə gəlincə terminallar gömrük orqanlarının mülkiyyəti olmadığından xidmət haqqını onların təsisçiləri müəyyənləşdirir. Buna baxmayaraq hər bir halda ödədiyiniz vəsaitlər barədə qəbz almaq hüququnuz vardır.

- Elməddin Orucov (Borusan Makina): Qısa idxal bəyannaməsi təqdim olunan hallarda malın müvəqqəti saxlanca götürülməsini nəzərə alaraq avtomobil nəqliyyatı ilə daxil olan malların müəssisənin öz anbarına aparılması mümkündürmü?

- Elman Nağıyev: Belə olacağı təqdirdə malın çatdırılmasının təsdiqlənməsi və həmçinin gömrük nəzarətinin həyata keçirilməsində çətinliklər yaranacaqdır. Bunun üçün qanunvericiliyə müvafiq olaraq mallar müəyyən olunmuş terminallara daxil olmalıdır.

- İmran Orucov (Asfil MMC): Əlavə dəyər vergisinin satışdan yarandığını nəzərə alaraq, yaxşı olardı ki, idxal olunan mallar satıldıqdan sonra bu verginin ödənilməsinə imkan veriləydi.

- R.Niftəliyev: Gömrük orqanlarında bütün vergi və rüsumlar mövcud qanunvericiliyin tələblərinə müvafiq tutulur. Bu səbəbdən vergilərin ödənilməsi proseduruna dəyişiklik etmək səlahiyyətimiz yoxdur.

- T.Mehdiyev: Başqa sualı və ya təklifi olan yoxdursa müzakirəmizi yekunlaşdıraq. Hesab edirəm ki, görüşümüz hamı üçün xeyirli olacaq. Burda səsləndirilən təklifləri özümüz bir daha təhlil edəcək və həll olunması üçün müvafiq addımlar atacayıq. Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinin avtomobil nəqliyyat vasitələrini qəbul etməsi üçün postu olmadığından bizə ünvanlanan nəqliyyat vasitələri Çalışacayıq ki, xarici iqtisadi fəaliyyət iştirakçılarının hüquqlarının həyata keçirilməsi istiqamətində maneələr yaranmasın. Ümidvarıq ki, Siz də öz tərəfinizdən gömrük qanunvericiliyinin tələblərinə əməl edəcək, öz təkliflərinizlə prosedur qaydaların asanlaşmasına, məmur-sahibkar münasibətlərinin daha sivil səviyyəyə qaldırılmasında səylərinizi əsirgəməyəcəksiniz.

**Qərara alındı:**

1. Məmur-sahibkar münasibətlərində tərəflərin hüquqlarının qorunması istiqamətində fəaliyyət gücləndirisin.
2. İclasda səsləndirilən təkliflər sistemləşdirilərək həll olunmaq üçün müvafiq tədbirlər görülsün.

**Sədr** **İslam Orucov**

**Katib** **Roman Məmmədov**